

# MƏN RUHLARA İNANIRAM

(Hekayə)

*Hacı Lalə xanım*
***SƏMƏDZADƏ,***
*təqaüdçü müəllim*

Bu hadisə cərrahiyyə əməliyyatı zamanı baş vermişdir.

Əgər buna hadisə demək olarsa. Belçikada beyin əməliyyatı keçirməli oldum. Qoluma sistem qoyulandan bir neçə dəqiqə sonra heç nəyi xatırlamadım. Birdən gördüm ki, anam, ağxalatlı həkimlər, tibb bacıları yanımdadır.

Əməliyyat başa çatanda həkimin başıma sarğı qoyduğunu da görürdüm. Mən bu görüntünün yuxu olduğunu zənn edirdim. Lakin bu heç də yuxuya oxşamırdı.

Anam yanımda idi. Mən onu ilk dəfə al rəngli donda görürdüm. O, əlimdən tutmuşdu. Əli qar kimi soyuq idi. Əlini saçlarıma çəkib dedi:

- Hər şey yaxşıdır, darıxma, Allah sənə kömək oldu.

Sanki dilim tutulmuşdu . Mən "Ana", - deyə çağırmaq, onunla söhbət etmək istəyirdim. O isə susurdu. Sonuncu dəfə əlini əlimin üstünə çəkib getdi. Otaqdan çıxanda mənə tərəf dönüb gülümsədi və gözdən itdi. O, mənim anam idi. Sən demə, bayaqdan anamın ruhu ilə görüşmüşəm. Bilirsiniz, belə hadisələrlə tez-tez rastlaşıram. Məni anlatmağa çalışırlar ki, bunlar yuxudur. Lakin mən inanıram ki, bu, yuxu yox, ruhlarla görüş, söhbətdir.

Bəzən illərlə görmədiyim, rastlaşmadığım tanışlarımla danışır, sonra həmin insanın qəfil yoxa çıxdığını görürəm. Çox həyəcanlanıram . Bir müddət keçəndən sonra o şəxsi soruşuram, deyirler ki, rəhmətə gedib. Mən ruhlara inanıram.

*Lənkəran şəhəri*

Ədalət.- 2020.- 7 may. S. 7.